# TƏRBİYƏ VƏ MƏKTƏBDƏNKƏNAR MÜƏSSİSƏLƏRLƏ İŞ SAHƏSİ ÜZRƏ 2012-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

Təhsil Nazirliyinin 24 oktyabr 2011-ci il tarixli, 1696 nömrəli, 24 oktyabr 2011-ci il tarixli, 1698 nömrəli əmrləri ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında ifa üzrə II respublika və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında ifa üzrə I respublika müsabiqələri keçirilmişdir. Bu müsabiqələrin keçirilməsində məqsəd ilk peşə-ixtisas təhsili müəssisələri şagirdlərinin və orta ixtisas təhsili müəssisələri tələbələrinin ifa mədəniyyətlərini yüksəltmək, musiqi alətlərində Azərbaycan bəstəkarlarının əsərlərinin, xalq mahnılarının səsləndirilməsi istiqamətində aparılan işləri daha da yaxşılaşdırmaq, milli rəqslərimizi təbliğ etmək, xüsusi istedada malik gəncləri üzə çıxarmaq olmuşdur.

Müsabiqə orta-ixtisas təhsili müəssisələrinin tələbələri arasında şeir, mahnı və rəqs nominasiyaları üzrə keçirilmişdir. İlk-peşə ixtisas təhsil müəssisələrinin şagirdləri arasında keçirilən müsabiqə şeir, mahnı və xalq çalğı alətlərində ifa nominasiyaları üzrə keçirilmişdir. Müsabiqələrin Respublika mərhələsinin münsiflər heyətində tanınmış incəsənət xadimləri Nurəddin Quliyev, Gülyaz və Gülyanaq Məmmədovalar, Təyyar Bayramov iştirak etmişlər. Məlumat üçün onu da bildiririk ki, müsabiqələr 4 mərhələdə keçirilib və müsabiqənin ən yaxşıları qalib adına layiq görülmüşlər.

Orta-ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən ifa üzrə I respublika müsabiqəsinin zona mərhələlərində 30 kollecdən 90 tələbə iştirak etmiş, I və II yerlərin qalibləri respublika mərhələsinə vəsiqə qazanmışlar. Respublika mərhələsində nominasiyalar üzrə yaradılmış münsiflər heyəti tərəfindən 5 nəfər I, 4 nəfər II, 6 nəfər III yerə layiq görülmüşdür.

İlk-peşə ixtisas təhsili müəssisələrinin şagirdləri arasında keçirilən ifa üzrə II respublika müsabiqəsində 61 ilk peşə-ixtisas təhili müəssisəsindən zona mərhələlərində 183 şagird iştirak etmiş, onlardan I və II yerləri tutanlar respublika mərhələsinə vəsiqə qazanmışlar. Respublika mərhələsində nominasiyalar üzrə yaradılmış münsiflər heyəti tərəfindən 5 nəfər I, 6 nəfər II, 6 nəfər III yerin qalibi olmuşlar. Müsabiqənin 4 iştirakçısı isə fəal iştiraka görə diploma layiq görülmüşdür.

Müsabiqə qaliblərinin 15 aprel 2012-ci il tarixində Bakı Slavyan Universitetində yekun konserti və mükafatlandırılma mərasimi keçirilmişdir. Müsabiqənin Respublika mərhələsində I, II və III yerləri tutan şagird və tələbələr Təhsil Nazirliyinin diplom və hədiyyələri ilə mükafatlandırılmışlar.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə qərarına əsasən ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş **ali məktəb tələbələri arasında bədii yaradıcılıq festivalı** keçirilmişdir. Festivalın yekunu 2012-ci ilin aprel ayında Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında keçirilmiş, I, II, III, yerlərə layiq görülmüş tələbələr Təhsil nazirliyi tərəfindən mükafatlandırılmışdır.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar Komitəsi ilə birgə ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibəti ilə 22 aprel 2012-ci il tarixində ümumtəhsil müəssisələrinin şagirdləri, 26 aprel 2012-ci il tarixdə isə ümumi təhsil müəssisələrinin müəllimləri arasında Respublika şahmat turnirləri keçirilmişdir. Turnirlərin qalibləri diplom və hədiyyələrlə mükafatlandırılmışlar.

Eyni zamanda Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş təqvim planlarına uyğun olaraq aprel-may aylarında müxtəlif idman növləri üzrə yarış və turnirlər keçirilmişdir.

Qeyd olunan yarış və turnirlərdə 400-ə yaxın müəllim və 2000-dən çox şagird iştirak etmişdir.

8 may 2012-ci il tarixdə T. İsmayılov adına Uşaq Gənclər Yaradıcılıq Sarayının "Uşaq dünyası" rəsm qalereyasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin 03 aprel 2012-ci il tarixli 529 nömrəli əmrinə əsasən ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə ümumtəhsil məktəblərinin şagirdləri arasında "**Heydər Əliyev və müstəqil Azərbaycan**" mövzusunda respublika rəsm müsabiqəsi keçirilmişdir. Məktəb, rayon (şəhər) və respublika mərhələsindən ibarət olan rəsm müsabiqəsi 3 yaş qrupu üzrə keçirilib. Müsabiqənin respublika mərhələsinə 200-ə yaxın rəsm işi təqdim edilmişdir. Müsabiqənin təşkilat komitəsinin üzvü Azərbaycan Rəssamlıq Akademiyasının prorektoru Səlhab Məmmədov tərəfindən seçim aparılmış I, II, III yerlərə layiq görülmüş məktəblilərə diplomlar və hədiyyələr verilmişdir. Respublika mərhələsinə təqdim olunmuş rəsmlərdən ən yaxşı rəsmlər seçilmiş və fotoalbom hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Rəhbərinin Xocalı soyqırımının iyirminci ildönümünün qeyd edilməsi haqqında 21 yanvar 2012-ci il tarixli 7 nömrəli sərəncamının icrası ilə bağlı Təhsil Nazirliyinin əmr və tədbirlər planı hazırlanmışdır. Nazirliyin 19 yanvar 2012-ci il tarixli 65 nömrəli əmrinə əsasən Xocalı soyqırımının 20-ci ildönümünə həsr olunmuş "Uşaqlar və müharibə" mövzusunda Gülüstan sarayında rəsm sərgisi keçirilmişdir. Sərgidə respublikanın ümumtəhsil müəssisələrinin, peşə məktəblərinin və liseylərinin şagirdləri tərəfindən işlənmiş 2000-dən yuxarı rəsm işlərindən 1200 rəsm işi Azərbaycan Rəssamlıq Akademiyasının prorektoru Fuad Salayev tərəfindən seçilmiş və nümayiş etdirilmişdir. Onlardan 89 rəsm işi seçilərək Moskva şəhərində Xocalı soyqırımının 20 illiyi ilə əlaqədar keçirilmiş rəsm sərgisində nümayiş etdirilmişdir. Qeyd olunan tədbir Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir. "Uşaqlar və müharibə" mövzusunda keçirilmiş respublika rəsm sərgisinə təqdim olunmuş rəsmlərdən 212 ədəd rəsm seçilmiş və fotoalbom hal-hazırda nəşrə hazırdır. Müsabiqədə Təhsil naziri cənab Misir Mərdanov, nazir müavini Qulu Novruzov, Milli Məclisin üzvləri, ali məktəblərin rektorları, ictimaiyyətin nümayəndələri iştirak etmişdilər.

Eyni zamanda qeyd edək ki, hər il 23-26 fevral tarixlərində Respublika Texniki Yaradıcılıq Mərkəzinin "Radiorabitə" klubunun üzvləri tərəfindən dünyanın 150 ölkəsinin uşaqlarına "Xocalı soyqırımı" barədə məlumatlar verilir.

Xocalı soyqırımını Azərbaycan uşaqları vasitəsilə dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara çatdırmaq məqsədi ilə Bəyanatı hazırlanmış, Təhsil Nazirliyinin müvafiq təlimati məktubu ilə 24 fevral 2012-ci ildə Azərbaycan uşaqlarının imzaları toplanmışdır.

2011-ci ilin Azərbaycan Respublikası Prezidenti tərəfindən Turizm ili" və BMT tərəfindən beynəlxalq "Meşə ili" elan edilməsi ilə əlaqədar olaraq meşələrin qorunması və davamlı istifadəsi sahəsində məktəblilərin ekoloji maarifləndirilməsini genişləndirmək məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 25 noyabr 2011-ci il tarixli, 1859 №-li əmrinə uyğun olaraq Təhsil Nazirliyində 10 yanvar 2012-ci il tarixdə "Meşələri qoruyaq" devizi altında gənc meşəçilərin Respublika müsabiqəsi keçirilmişdir. Gənc meşəçilərin Respublika müsabiqəsi 3 nominasiya üzrə: 1. məktəb meşəçiliyi, 2. meşənin bioloji müxtəlifliyi, 3. ekoturizm və 3 mərhələdə (məktəb, şəhər, respublika) respublikanın orta ümumtəhsil məktəblərinin V-XI sinif şagirdləri, dərnək üzvləri, "gənc meşəçilər" dəstələrinin üzvləri arasında keçirilmişdir. Müsabiqənin Respublika mərhələsinə 53 rayon və şəhərdən təqdim olunmuş 300-ə qədər

referatlarda, ekoloji layihələrdə turistlərin ekoloji maariflәndirilmәsi, meşələrə antropogen təsirin qiymətləndirilməsi, meşənin qırılmasının qarşısının alınması, meşə ehtiyatlarının davamlı istifadəsi və bərpa olunması, meşə bitkilərinin tədris-təcrübə sahəsində artırılması üçün məktəblilər tərəfindən görülən işlər şərh olunmuşdur. Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzlərinin, Uşaq Yaradıcılıq Mərkəzlərinin ekoloji dərnək üzvlərinin, "gənc meşəçilər" dəstələrinin həyata keçirdikləri yaşıllaşdırma və abadlaşdırma işlərinə aid yazılarda məktəblilərin ekoloji fəaliyyəti geniş əks etdirilmişdir. Müsabiqənin respublika mərhələsində Naxçıvan MR, Bakı, Şirvan, Lənkəran şəhər, Şamaxı, Qax, İsmayıllı, Göyçay, Tərtər, Şabran, Tovuz, Xaçmaz və rayonlarından 18 gənc meşəçi I, II, III yerlərə və 12 şagird həvəsləndirici diploma layiq görülmüşdür.

Gənc meşəçilərin Respublika müsabiqəsinin yekun tədbirində Azərbaycan Respublikası Təhsil nazirinin müavini Qulu Novruzov, Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsinin müdiri Ağababa İbrahimov, Bakı şəhəri üzrə Təhsil İdarəsinin Məktəbdənkənar təhsil sektorunun müdiri Qənirə Sultanova, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İxtisasartırma və İxtisaslaşdırma İnstitutunun Meşə şöbəsinin müdiri, dosent, k.t.e.n. Allahverdi Dolxanov, BDU-nun dosenti, k.t.en. Rəhilə Ağabəyova, ENPI FLEG proqramının Azərbaycan üzrə əlaqələndiricisi Azər Qarayev, QİZ Biomüxtəlifliyin Davamlı İdarə Olunması Proqramının əməkdaşı Natiq İsmayılov, Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin əməkdaşları və digər qonaqlar, müəllimlər, məktəblilər iştirak etmişlər. Müsabiqənin qaliblərinə Təhsil Nazirliyinin diplomları və hədiyyələr təqdim olunmuşdur.

2012-ci ilin mart ayında orta məktəb şagirdləri və dərnək üzvlərinin iştirakı ilə "Su - həyatdır" devizi altında məktəblilərin respublika içməli suya qənaət aylığı keçirilmişdir. Ölkənin müxtəlif regionlarında alim və mütəxəssislərin iştirakı ilə orta məktəblərdə, ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərində "22 mart-Ümumdünya su günü"nə həsr olunmuş viktorinalar, dəyirmi masalar, ekoloji aksiyalar, seminarlar təşkil edilmişdir. Məktəblilər yerli ərazilərdə içməli su mənbələrinin ətrafında təmizlik və abadlıq işlərinin aparılmasında, su kəmərlərində nasazlıqların aşkar edilməsində, əhali arasında içməli suyun qənaətlə istifadəsi barədə təbliğat işlərində yaxından iştirak etmişlər.

"Əhalinin ekoloji təhsili və maariflәndirilməsi haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələri yerinə yetirmək və məktəblilərin ekoloji maariflәndirilməsini genişləndirmək məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi, Təhsil Nazirliyi Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Ekologiya İdarəsinin və 46 №-li Məktəbdənkənar İş Mərkəzinin birgə əməkdaşlığı ilə 2012-ci ilin fevral-aprel aylarında Bakı şəhəri məktəbliləri arasında "Ekoerudit" ekoloji breyn-rinqi keçirilmişdir. Seçmə mərhələ 2012-ci ilin fevral ayında, yarımfinal mərhələsi mart ayında ekologiyanın müxtəlif sahələrini əhatə edən mövzular üzrə 30 komandanın iştirakı ilə təşkil olunmuşdur.

"Əhalinin ekoloji təhsili və maariflәndirilməsi haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələri yerinə yetirmək və məktəblilərin ekoloji maariflәndirilməsini daha da genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birgə əməkdaşlığı ilə 2012-2013-cü tədris ilində "Ekoerudit" məktəblilərin Respublika ekoloji breyn-rinq bilik yarışı keçirilir. Respublika üzrə breyn-rinq yarışları orta ümumtəhsil məktəblərinin təbiət fənlərinin, məktəbdənkənar təhsil müəssisələrinin ekoloji dərnəklərinin tədris proqramlarına daxil edilmiş ekoloji mövzular üzrə VIII-XI sinif şagirdləri, dərnək üzvləri arasında 3 mərhələdə 2012-ci ilin dekabr - 2013-cü ilin aprel aylarında rayon (şəhər), zona və respublika üzrə təşkil olunacaqdır. Bakı, Naxçıvan, Gəncə, Şirvan,

Lənkəran, Quba, İsmayıllı zonaları üzrə bilik yarışlarının qalibləri respublika mərhələsində ARDNŞ-nin Eko-parkında keçiriləcək yekun tədbirdə iştirak edəcəklər.

İnsan alveri ilə mübarizə sahəsində qəbul edilmiş Milli Fəaliyyət Planının (2009-2013-cü illər) icrası istiqamətində 2012-ci ildə də tədbirlər davam etdirilmişdir. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq idarəsi ilə birgə cari ildə respublikanın bütün ilk peşə ixtisas təhsili müəssisələrində maarifləndirmə məqsədilə təsdiq olunmuş qrafikə uyğun görüşlər təşkil edilmişdir. Görüşlərə ekspertlərlə yanaşı yerli və beynəlxalq qeyri hökumət təşkilatlarının nümayəndələri də dəvət olunmuşlar.

Narkomaniya və Narkotik Vasitələrin Qanunsuz dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Proqramının icrası istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. 2012-ci il 28 aprel tarixində Təhsil və Səhiyyə nazirlikləri arasında maarifləndirmənin gücləndirilməsi istiqamətində memorandum imzalanmışdır. Qeyd olunan sənədin imzalanması akademik Zərifə Əliyeva adına Respublika liseyində mərhum akademik Zərifə xanım Əliyevanın ad günündə baş tutmuşdur. Bununla da "Narkotiklərə yox deyirik!" kampaniyasına start verilmişdir. Memoranduma əsasən kampaniya çərçivəsində Bakı şəhərinin 50-dən çox tam orta məktəbində seminarlar təşkil edilmişdir. Seminarların hər birində Səhiyyə Nazirliyinin Respublika Narkoloji mərkəzinin mütəxəssisləri tərəfindən şagirdlərə ətraflı məlumat çatdırılmışdır. Bu tədbirlər 2013-cü ilin sonuna qədər davam etdiriləcəkdir.

2012-ci ilin mart ayının 15-dən aprel ayının 15-nə kimi ənənəvi olaraq keçirilən "Yaşıl Azərbaycan" devizi altında məktəblilərin respublika yaşıllaşdırma aylığında Bakı, Naxçıvan, Sumqayıt, Gəncə, Şirvan şəhərlərinin, Şəki, İsmayıllı, Cəlilabad, Quba, Xaçmaz, Zaqatala və digər rayonların gənc təbiətsevərləri fəallıq göstərmişlər. Məktəblilər məktəbyanı sahələrdə, yol kənarlarında, yaşayış yerlərində minlərlə ağac və kol bitkisi əkmiş, yeni meşə zolaqlarının salınmasında, nadir bitkilərin toxumla artırılmasında, tükəndikləri ərazilərdə bərpa edilməsində, təmizlik, abadlıq və yaşıllaşdırma işlərində fəal iştirak etmişlər.

Təhsil Nazirliyinin 23 dekabr 2011-ci il tarixli 2161 nömrəli əmrinə əsasən "Ən çox sevdiyim idman növü" mövzusunda Respublika rəsm müsabiqəsi keçirilmişdir. Müsabiqə 3 mərhələdə keçirilib. Məktəb mərhələsi, rayon, şəhər mərhələsi və Respublika mərhələsi. Müsabiqənin Respublika mərhələsinə 200-ə yaxın rəsm işi təqdim edilmişdir. Azərbaycan Rəssamlıq Akademiyasının peşəkar rəssamlarından ibarət münsiflər heyəti tərəfindən seçim aparılmışdır.

Müsabiqədə I, II, III, yerlərə layiq görülmüş məktəblilərə 5 aprel 2012-ci il tarixdə T. İsmayılov adına Uşaq Gənclər Yaradıcılıq Sarayının "Uşaq dünyası" rəsm qalereyasında keçirilən yekun tədbirdə diplom və hədiyyələr verilmişdir.

Təhsil Nazirliyinin 06 fevral 2012-ci il tarixli 165 nömrəli əmrinə əsasən uşaq və yeniyetmələrin respublika elmi-texniki yaradıcılıq müsabiqəsi keçirilmişdir. Müsabiqədə 8 yaşdan 18 yaşadək uşaq və yeniyetmələr iştirak etmişlər. Müsabiqə texniki yaradıcılığın 5 növü üzrə 15 nominasiyada keçirilmişdir. Müsabiqənin zona mərhələsində respublikanın 68 rayonundan 450 nəfərə yaxın, Respublika mərhələsində isə respublikanın 45 rayon və şəhərindən 195 nəfər məktəbli iştirak etmişdir. Müsabiqənin yekunu 12 aprel 2012-ci il tarixdə Heydər Əliyev adına liseydə keçirilmiş, I, II, III yerlərə layiq görülmüş məktəblilərə nazirliyin diplomu və hədiyyələri təqdim olunmuşdur.

"22 aprel-Yer günü"nə həsr olunmuş "Ekoerudit" breyn-rinqinin final mərhələsi 23 aprel 2012-ci il tarixində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Ekologiya İdarəsinin Ekoloji Parkında keçirilmişdir.

Yarışdan öncə final mərhələsinin iştirakçıları olan Bakı məktəbliləri Qala qoruğuna təşkil edilmiş ekskursiyada xalqımızın qədim tarixi abidələrini seyr etmişlər. Sonra şagirdlər ARDNŞ Eko-parkın tinglik sahələri, parkda alternativ enerji istehsal edən qurğularla yaxından tanış olaraq, neftlə çirklənmiş ərazilərin abadlaşdırılmış sahəsində Dövlət Neft Şirkəti tərəfindən həyata keçirilən geniş miqyaslı tədbirlər barədə ətraflı məlumat almışlar. Məktəblilər nadir eldar şamının tinglərinin xüsusi dibçəklərə əkmişlər.

Breyn-rinqin final mərhələsində komandalar ekoloji problemlərə həsr olunmuş “Sağlam həyat tərzi”, “Meşələrin qorunması və davamlı istifadəsi”, “Heyvanların ekologiyası”, “Tullantıları hara atmalı” və digər mövzularda müxtəlif elektron təqdimatlarla çıxış etmişlər. Yarışın II mərhələsində məktəblilər tullantılardan quşlar üçün süni quş yuvaları hazırlamaqla yaradıcılıq qabiliyyətlərini nümayiş etdirmişlər. Münsiflər heyətinin qərarı ilə hər iki turda xüsusilə fərqlənmiş Bakı şəhəri 116 saylı məktəbin “Yaşıllar”, 164 saylı məktəbin “Ruzgar” və 58 saylı məktəbin “Biosfer” komandaları I, II, III yerlərə layiq görülərək TN, ARDNŞ və BŞTİ-nin diplomları, qiymətli hədiyyələrlə mükafatlandırılmışdır. Digər komandalara da fəal iştiraka görə sertifikatlar və hədiyyələr təqdim olunmuşdur.

Tədbirdə Azərbaycan Respublikası Təhsil Nazirliyi Tərbiyə və məktəbdənkənar müəssisələr şöbəsinin müdiri Ağababa İbrahimov, Dövlət Neft Şirkətinin Ekologiya İdarəsinin rəis müavini Vüqar Kərimov, şöbə müdiri Füzuli Hacıyev, “Davamlı inkişaf” cəmiyyətinin sədri Fikrət Cəfərov, Ekoloji parkın direktoru Tahir Şirəliyev və başqaları iştirak etmişlər.

26-27 aprel 2012-ci il tarixdə İsmayıllı rayonunda və Şamaxı rayonu Avaxil kənd orta məktəbində müəllimlərin və məktəblilərin iştirakı ilə gənc meşəçilərin toplantıları keçirilmişdir. Ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərinin əməkdaşlarının, orta məktəb müəllimlərinin iştirakı ilə ”Meşələrin qorunmasında məktəblilərin ekoloji maarifləndirilməsinin əhəmiyyəti” mövzusunda toplanışda meşələrin davamlı istifadəsi və qorunmasında məktəblilərin fəaliyyəti, görülən işlər, problemlər və problemlərin həlli yolları ətraflı müzakirə edilmişdir. Seminarda iştirak edən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Şamaxı və İsmayıllı rayonlarının Meşələrin Bərpası və Mühafizəsi Müəssisələrinin əməkdaşları Şahdağ Milli Parkının ərazisində “Gənc meşəçilər” dəstələrinin tədqiqatçılıq fəaliyyəti və birgə tədbirlər barədə çıxış etmişlər. Toplantı iştirakçıları bu sahədə fəaliyyətin genişləndirilməsi və təkmilləşdirilməsi məqsədilə bir sıra təkliflər irəli sürmüşlər. Şamaxı rayonunun Avaxil, Nağaraxana, Qaravəlli, Qonaqkənd, Çağan, Dədəgünəş və digər məktəblərinin gənc meşəçiləri meşələrdə aşkar etdikləri təbiət abidələrinin qorunması ilə əlaqədar müraciətlər etmişlər. Toplantı iştirakçılarına plakatlar, DVD filmlər, təqvimlər təqdim olunmuşdur.

26.05.2012-ci il tarixdə Quba rayonunda meşə ərazisində yerləşən Vladimirovka kənd orta məktəbində müəllimlərin və məktəblilərin iştirakı ilə gənc meşəçilərin toplantısı keçirilmişdir. Toplantıda gənc meşəçilər dəstələrinin üzvləri meşələrin qorunması və artırılması sahəsində fəaliyyətləri barədə ətraflı məlumat vermişlər. “Yaşıl Azərbaycan” və “Su həyatdır” aylıqlarında fəal iştirak edən dəstə üzvləri təbii ehtiyatların qorunması ilə yanaşı əhali arasında da fəal təbliğat işləri apararaq meşələrin davamlı istifadəsinə aid məlumatların yayılmasında iştirak etmişlər. Rayonun Digah, Cartəpə, Vladimirovka, Alekseyevka və digər kənd məktəblərinin biologiya müəllimlərinin iştirakı ilə meşədə geobotaniki, ekoloji və hidrobioloji tədqiqatların aparılması metodları, meşənin yaruslar üzrə öyrənilməsi, meşənin ekoloji vəziyyətinin təhlili, nadir təbiət abidələrinin təyini, deqradasiyanın təyin edilməsi, antropogen zərərin aradan qaldırılması yolları ətraflı müzakirə edilmişdir. Quba rayon Meşələrin Bərpası və Mühafizəsi Müəssisəsinin əməkdaşı xüsusi təyin olunmuş meşə sahələrinin bərpasında məktəblilərin fəal iştirakı üçün müəssisənin tingliyindən yerli ağac növlərinin ayrıldığını

bildirmişdir. Toplantı iştirakçılarına Azərbaycanın təbiətinə aid plakatlar və DVD filmlər təqdim olunmuşdur. Tədbirin sonunda məktəbyanı sahədə gənc meşəçilərin saldığı meşə bitkilərindən ibarət tingliyə baxış keçirilmişdir.

2012-ci ilin may ayında Təhsil Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin Biomüxtəlifliyin İdarə Olunması Proqramının birgə əməkdaşlığı ilə “22 may - Biomüxtəliflik günü” mövzusunda məktəblilərin Respublika ekoloji tədbiri keçirilmişdir. 2012-ci il may ayının 14-dən 18-nə kimi mütəxəssislərin iştirakı ilə əlavə 5 rayonda – Mingəçevir şəhəri, Şəki, Salyan Sabirabad, Xaçmaz rayonlarının məktəblərində, ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərində biologiya müəllimlərinin iştirakı ilə təlimatı seminarlar keçirilmişdir. Seminarlarda GİZ Biomüxtəlifliyin Qorunması Proqramının dəstəyi ilə nəşr edilmiş biomüxtəlifliyə aid təyinedici kitabçalar, xüsusi cədvəllər, “Azərbaycanın təbiət gözəllikləri” adlı DVD filmlər, ekoloji oyunların keçirilməsi üçün kartlar müəllimlərə təqdim olunmuşdur. 22 may 2012-ci il tarixdə respublikada 25 rayon və şəhərdən 3000-ə qədər şagird və dərnək üzvü ekoloji ekskursiyada iştirak edərək, məktəbyanı ərazilərdə, meşələrdə park və xiyabanlarda bioloji müxtəlifliyi tədqiq etmişlər. Bakı, Naxçıvan, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri, Qax, Şamaxı, Ordubad, Şəmkir, Füzuli, Bərdə, Quba, Qusar, Qazax, Tovuz, Zaqatala, Göyçay, Masallı, İsmayıllı və digər rayonların gənc təbiətsevərləri ölkənin flora və faunasını öyrənərək bioloji müxtəlifliyin əhəmiyyəti və qorunmasına dair yeni bilik və bacarıqlar əldə etmişlər. 3 il ərzində aparılan tədqiqatların nəticələrinə əsasən məktəb ekoloji monitorinqinin yaradılmasına nail olunmuşdur. Almaniyalı həmkarlarımız tərəfindən məktəblilərin ekoloji tədqiqatlarına həsr olunmuş video-film çəkilmişdir. 15 noyabr 2012-ci il tarixdə GİZ Biomüxtəlifliyin Qorunması Proqramının rəhbərliyinin təşkil etdiyi və biomüxtəlifliyin 3 illik məktəb ekoloji monitorinqinin yekunlarına həsr olunmuş tədbirdə ekoloji maarifləndirmədə fəal iştirak edən Bakı, Şirvan şəhəri, Naxçıvan MR Ordubad rayonu, Şəmkir, Qax və Bərdə rayonlarının orta məktəb müəllimlərinə sertifikatlar təqdim olunmuşdur. Tərbiyə və məktəbdənkənar müəssisələr şöbəsinin müdiri Ağababa İbrahimov, GİZ Biomüxtəlifliyin Qorunması Proqramının rəhbəri Kristian Gönner və digər əməkdaşların iştirakı ilə biomüxtəlifliyin qorunmasına və öyrənilməsinə həsr olunmuş tədbirin yekunları təhlil olundu, proqramın təkmilləşdirilməsi və yeni vəsaitlərin hazırlanması üçün təkliflər irəli sürülmüşdür.

Biomüxtəliflik gününün qeyd edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Ekologiya İdarəsi və Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin əməkdaşlığı ilə 23 may 2012-ci il tarixdə ARDNŞ Qala qəsəbəsində yerləşən Eko-parkında Bakı məktəblilərinin iştirakı ilə “22 may- Biomüxtəliflik günü” ekoloji tədbiri keçirilmişdir. Tədbirdə Bakı şəhəri 64 və 99 saylı orta məktəblərin şagirdlərindən ibarət ekoloji dərnəklərin üzvləri, müəllimlər, RETTM-nin, BŞTİ və ARDNŞ Ekologiya İdarəsinin əməkdaşları iştirak etmişlər. Ekoloji tədbirin iştirakçıları Eko-parkın tingliyində bitkilərin bioloji müxtəlifliyi ilə tanış olmuşlar. Tədbirin açılışında ARDNŞ Ekologiya İdarəsinin şöbə müdiri Füzuli Hacıyev, RETTM-in direktor müavini Lalə Dadaşova çıxış edərək məktəblilərə biomüxtəliflik gününün mahiyyəti barədə məlumat vermişlər. Sonra Eko-mərkəzdə məktəblilərlə “Bioloji müxtəliflik - həyatın əsasıdır!” mövzusunda viktorina təşkil olunmuşdur. Komanda üzvləri Eko-parkın ərazisində ekoloji tədqiqatlar apararaq bitki və heyvan növlərini təyinedicilər vasitəsilə xüsusi cədvəllərdə qeyd etmişlər. Sonra uşaqlarla bioloji müxtəlifliyə aid ekoloji oyunlar təşkil olunmuşdur. Yekunda komandaların çıxışları qiymətləndirilərək ekoloji tədbirdə fərqlənən şagirdlərə həvəsləndirici hədiyyələr (emblemli papaqlar, köynəklər, bloknotlar, təqvimlər, GİZ tərəfindən hazırlanmış “Azərbaycanın təbiət gözəllikləri” adlı DVD filmlər və kitablar) təqdim olunmuşdur.

2012-2013-cü tədris ilində “Bioloji müxtəliflik”, “İnsan və ətraf mühit”, “Ekoloji mədəniyyət”, “Təbii sərvətlər” profilləri üzrə şagirdlərin maraq və həvəsini nəzərə alaraq dərnəklər təşkil edilmişdir. Dərnək məşğələlərində interaktiv təlim metodlarını tətbiq etməklə məktəblilərin ekoloji biliklərini artırılmasına, onların ekoloji vəziyyətin yaxşılaşdırılmasında əməli fəaliyyətə cəlb olunmasına, ətraf mühitin qorunması sahəsində fəal həyat mövqeyinin və ekoloji mədəniyyətin formalaşdırılmasına şərait yaradılmışdır.

Tədris-metodiki işi genişləndirmək məqsədilə “ Davamlı inkişaf”, “Məktəbəqədər tərbiyə müəssisələrində uşaqlara ekoloji biliklərin öyrədilməsi”, “Alternativ enerji”, “Ekoloji turizm”, “İqlim dəyişmələri”, “İqtisadiyyat və ətraf mühit”, “Məktəblilərin yaradıcılıq potensialının inkişafında ekoloji tədqiqatların rolu”, “Sinifdənxaric tədbirlərin məktəblilərin ekoloji biliklərinin artırılmasında rolu”, “Məktəb və məktəbdənkənar müəssisələrdə nadir ağac və kolların artırılması üsulları”, “Xəzərin bioloji müxtəlifliyi”, “Məktəblilərlə ekoloji ekskursiyaların təşkili” və s. mövzularda ekoloji dərnək proqramları, metodiki tövsiyələr, metodiki-tədris vəsaitləri hazırlanmışdır.

İl ərzində ekoloji turizmin təbliği və ekoloji maarifləndirməni genişləndirmək məqsədilə Təhsil nazirliyinin və ARDNŞ-nin birgə təşəbbüsü ilə xüsusi avtobuslarda Bakı şəhərinin orta məktəblərində fəaliyyət göstərən ekoloji dərnəklərin üzvləri üçün ARDNŞ Eko-Parkına, AMEA Mərkəzi Nəbatat Bağına, Mərdəkan Dendrarisinə, Zooloji Muzeyə, Zooparka, Milli Parka, Yanar dağa, Atəşgaha və s. ekskursiyalar təşkil edilmişdir.

Məktəblilərin ətraf mühit və biomüxtəliflik barədə ekoloji biliklərini artırmaq məqsədilə Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti Biomüxtəlifliyin Davamlı İdarə Olunması Proqramının dəstəyi ilə dərnək üzvləri üçün xüsusi avtobuslarda Şirvan, Altıağac və Şahdağ Milli Parklarına ekoloji səyahətlər təşkil edilmiş, Milli Parkların ərazisində bioloji müxtəlifliyin, meşələrin müasir vəziyyətinin öyrənilməsi məqsədilə məktəblilərin iştirakı ilə ekoloji tədqiqatlar aparılmışdır.

Təhsil Nazirliyinin 24 oktyabr 2011-ci il tarixli, 1695 nömrəli və 18 aprel 2012-ci il tarixli, 601 nömrəli əmrlərinə əsasən ümumi təhsil məktəblərinin şagirdləri arasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümünə və 28 may – Respublika gününə həsr olunmuş ifa üzrə respublika müsabiqələri keçirilmişdir. Bu müsabiqələrin keçirilməsində məqsəd ümumi təhsil məktəblərinin şagirdlərinin ifa mədəniyyətini yüksəltmək, musiqi alətlərində Azərbaycan bəstəkarlarının əsərlərinin, xalq mahnılarının səsləndirilməsi istiqamətində aparılan işlərin səmərəliliyini artırmaq, xüsusi istedada malik uşaq və gəncləri üzə çıxarmaqdan ibarət olmuşdur. Müsabiqələr 4 mərhələdə keçirilmiş, ən yaxşıları münsiflər heyəti tərəfindən qalib olaraq müəyyənləşdirilmişdir. 1 iyun 2012-ci il tarixində Bakı şəhəri 20 nömrəli tam orta məktəbdə qaliblərinin yekun konserti və mükafatlandırılma mərasimi keçirilmişdir.

Azərbaycan Respublikasının Təhsil və Fövqəladə Hallar nazirliklərinin birgə razılaşmasına əsasən, Fövqəladə Hallar Nazirliyinin 20 fevral 2012-ci il tarixli, 012 nömrəli əmri ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında “Fövqəladə hallar uşaqların gözü ilə” mövzusunda II respublika uşaq yaradıcılıq müsabiqəsi keçirilmişdir. Respublikanın bütün şəhər və rayonlarının ümumtəhsil məktəblərinin iştirak etdiyi müsabiqəyə “Rəsm”, “Plakat”, “Əl işi”, “Yumşaq oyuncaq”, “Yanğın qəza-xilasetmə texnikasının modeli” nominasiyaları üzrə işlər təqdim olunmuşdur. Müsabiqənin keçirilməsində məqsəd uşaqlarda təhlükəsiz həyat fəaliyyəti mədəniyyətinin formalaşdırılması, ictimaiyyətin diqqətinin fövqəladə hal probleminə cəlb edilməsi, böyüməkdə olan gənc nəslin vətənpərvər ruhda tərbiyə edilməsi, eləcə də istedadlı uşaqların üzə çıxarılması olmuşdur. Rayon və şəhər müsabiqələrinin yekunları üzrə müsabiqənin təşkilat komitəsinə 355 rəsm , 218 plakat, 146 əl işi, 117 model və 82 yumşaq oyuncaq təqdim

olmuşdur. Müsabiqəyə təqdim olunan işlər Fövqəladə Hallar Nazirliyi, Təhsil Nazirliyi, Rəssamlar İttifaqı, Bəstəkarlar İttifaqı və Rəssamlıq Akademiyasının nümayəndələrindən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilmişdir. İştirakçılardan 20 nəfəri I, 23 nəfəri II, 27 nəfəri isə III yeri tutmuş, 12 şagird isə həvəsləndirici mükafatlara layiq görülmüşdür. Qaliblər Fövqəladə Hallar Nazirliyi tərəfindən fəxri fərman və qiymətli hədiyyələrə mükafatlandırılmışdır. 01 iyun 2012-ci il tarixində Muzey Mərkəzində müsabiqənin qaliblərinin işlərindən ibarət sərgi və mükafatlandırma mərasimi keçirilmişdir. Fövqəladə Hallar naziri K. Heydərovun iştirakı ilə keçirilən mərasimdə Təhsil nazirinin müavini Q. Novruzov, Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsinin müdiri A. İbrahimov və Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsinin M. Salmanova iştirak etmişdir.

3-14 dekabr 2012-ci il tarixlərində Daşkənd şəhərində Özbəkistan Bədii Yaradıcılıq Akademiyası tərəfindən keçirilən "Daşkənd sevincləri" IV beynəlxalq uşaq rəsmləri biennalesində Azərbaycan məktəblilərinin iştirakının təmin edilməsi məqsədilə Nazirliyin 46-20-4947/16 nömrəli, 18 iyun 2012-ci il tarixli təlimati məktubu hazırlanaraq yerlərə göndərilmişdir.

2011-ci ildə Təhsil, Gənclər və İdman nazirliklərinin razılığı və Fövqəladə Hallar Nazirliyinin 18 noyabr 2011-ci il tarixli, 099 nömrəli əmri ilə Bakı şəhərinin məktəbləri arasında ilk dəfə "Gənc Xilasedici və Yanğınsöndürən" yarışı keçirilmişdir. Həmin yarışda Bakı şəhərinin hər rayonundan 5 məktəb iştirak etmişdir.

2012-ci ildə həmin yarış respublika üzrə keçirilmişdir. Respublika yarışı 4 mərhələdə: məktəbdaxili, rayon, şəhər, zona və respublika mərhələlərində keçirilmişdir. Əsasnaməyə uyğun olaraq yarışın final mərhələsi 24 iyun - 01 iyul 2012-ci il tarixlərində Fövqəladə Hallar Nazirliyinin Qəbələ rayonunda yerləşən hərbi hissəsində keçirilmişdir.

Yarışın keçirilməsində məqsəd yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, məktəblilərə şəxsi və ictimai təhlükəsizliyə məsuliyyət, gənc nəslə hərbi-vətənpərvərlik ruhunun aşılanması, məktəblilər arasında sağlam həyat tərzinin təbliğidir.

Yarışlar kiçik (12-14 yaş) və böyük (15-17 yaş) olmaqla 2 yaş qrupunda keçirilmişdir.Yarış maneələr zolağı, kombinəedilmiş yanğın estafeti, axtarış-xilasetmə işi, yaşam marşrutu, çöl şəraitində yaşayış və müsabiqə proqramından ibarət olmuşdur. Final mərhələsində 133 şagird iştirak etmişdir.

Əsasnaməyə uyğun olaraq yarışın final mərhələsi 24 iyun - 01 iyul 2012-ci il tarixlərində Fövqəladə Hallar Nazirliyinin Qəbələ rayonunda yerləşən hərbi hissəsində keçirilmişdir. Final mərhələsində 8 zona üzrə I, II yerləri, Bakı şəhəri üzrə isə I, II və III yerləri tutmuş komandalar iştirak etmişdir.

Final mərhələsinə aşağıdakı komandalar çıxmışdır: Bakı şəhərinin 158 və 190 nömrəli məktəbləri və Bakı Slavyan Universitetinin nəzdindəki məktəb-lisey kompleksi, Gəncə, Sumqayıt, Mingəçevir, Şuşa şəhərlərinin, Qəbələ, Ağdam, Yardımlı, İsmayıllı, Xocalı, Xocavənd, Cəlilabad, Biləsuvar, Neftçala, Quba, Göygöl və Siyəzən rayonun komandaları.

Final yarışının açılışı 25 iyun 2012-ci il tarixində, bağlanışı isə 30 iyun 2012-ci il tarixində Qəbələ rayonunda olmuşdur. Açılışda Təhsil naziri cənab M. Mərdanov və Fövqəladə Hallar naziri K. Heydərov iştirak etmişdir.

Rusiya Təhsil və Elm Nazirliyinin təşəbbüsü ilə 17 iyul - 08 avqust 2012-ci ilin tarixlərində Ümumrusiya "Orlyonok" uşaq mərkəzində Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin uşaqları arasında Uşaqların beynəlxalq görüşü "Açıq dünya" adlı III Beynəlxalq toplantı təşkil edilmişdir. Həmin toplantıda Bakı şəhərinin 177 nömrəli tam orta məktəbindən yüksək göstəriciləri olan 12 məktəblinin və 1 nəfər müəllimin iştirakı təmin edilmiş, onlar ölkəmizi layiqincə təmsil etmişlər.

2011-2012-ci tədris ilində Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən aparılmış monitorinq nəticəsində aşkar edilmiş nöqsanların aradan qaldırılması məqsədilə Nazirliyin 46-20-6345/16 nömrəli, 24 avqust 2012-ci il tarixli təlimati məktubu hazırlanaraq yerlərə göndərilmişdir.

Azərbaycanın gənc ekoloqları Rusiya Meşə Təsərrüfatı Federal Agentliyi tərəfindən Azərbaycan Respublikası Təhsil Nazirliyinə göndərilən dəvətnamə məktubuna əsasən 11-15 sentyabr 2012-ci il tarixlərində Moskva şəhərində keçirilən Gənclərin 9-cu Beynəlxalq Meşə Müsabiqəsində iştirak etmişlər. Ölkəmizi bu tədbirdə Azərbaycan Qərb Universitetinin nəzdində tam orta məktəbin biologiya müəllimi Nailə Rəhimovanın rəhbərliyi ilə, Şamaxı rayonu Yusif Məmmədəliyev adına qəsəbə tam orta məktəbin 10-cu sinif şagirdi, 2012-ci ilin yanvar ayında Təhsil Nazirliyi tərəfindən keçirilən gənc meşəçilərin Respublika müsabiqəsinin qalibi Kamran İsmayıllı və Odlar Yurdu Universitetinin riyaziyyat, informatika və texniki elmlər fakultəsinin mühəndis-ekoloq ixtisası üzrə III kurs tələbəsi Cəlal Axundov təmsil etmişlər. “Pirqulu meşələrinin öyrənilməsi və bərpası üsulları” və “Hirkan Milli Parkında meşələrin təbii bərpasının öyrənilməsi” mövzusunda ekoloji layihələr təqdim olunmuşdur. Gənc ekoloqlar Rusiya Meşə Təsərrüfatı Federal Agentliyinin təsis etdiyi medallar, diplomlar və qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə əməkdaşlığı ilə Təhsil Nazirliyinin 541 №-li 07.04.2011-ci il tarixli əmri ilə təsdiq edilmiş Bankı, Beynəlxalq Vəhşi Təbiət Fondunun maliyyə dəstəyi ilə nəşr edilmiş “Gənc Meşəçilər Məktəbi” metodik vəsaiti rayon, şəhər ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərinə təqdim olunmuşdur. Meşələrin qorunması sahəsində məktəblilərin ekoloji biliklərini artırmaq məqsədilə Quba, Xaçmaz, İsmayıllı, Lənkəran, Cəlilabad, Tovuz, Şəki, Şamaxı, Qax rayonlarında “Gənc meşəçilər” dəstələri təşkil olunmuşdur. Ümumtəhsil məktəblərinin, ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərinin nəzdində meşəçilik üzrə dərnək məşğələlərində şagirdlərin meşənin flora və faunası, təbii sərvətlərinin davamlı istifadəsi barədə biliklərini artırmaqla yanaşı, ətraf mühitə qayğıkeş münasibəti və ekoloji mədəniyyəti formalaşdırmaq məqsədi ilə təlim-tərbiyə işləri həyata keçirilmişdir.

Energetika və ətraf mühit sahəsində məktəblilərin ekoloji biliklərini artırmaq və alternativ enerji mənbələrindən istifadə üzrə bacarıq və vərdişləri formalaşdırmaq məqsədilə Norveç Təbiəti Mühafizə Cəmiyyətinin maliyyə dəstəyi ilə Təhsil Nazirliyi və Azərbaycan Gənclər İttifaqının birgə əməkdaşlığı ilə “Alternativ enerji”, “Enerjiyə qənaət”, “Azərbaycanda enerji resursları” mövzusunda ekoloji dərnək, klub və digər birləşmələrin nümunəvi proqramları tərtib edilmişdir. Ekoloji dərnək məşğələlərində məktəblilərdə enerji ehtiyatlarından səmərəli istifadə bacarıqlarının və təbii ehtiyatlara qayğıkeş münasibətin formalaşdırılması məqsədilə təlim-tərbiyə işləri həyata keçirilmişdir. Alternativ enerji mənbələrinin istifadəsi ilə tanışlıq məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Ekologiya idarəsi ilə birgə əməkdaşlığa uyğun EKO-Parkına ekskursiyalar təşkil edilmiş, dərnək üzvləri külək, su və günəş enerjisinin istehsalı prosesləri ilə tanış olmuşlar.

Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2004-cü il tarixli 462 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı”nın alternativ (bərpa olunan) enerji mənbələrindən istifadə edilməsi üzrə Tədbirlər Planına uyğun olaraq orta məktəblərdə alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsinə dair maarifləndirmə işlərinin aparılması məqsədilə əməkdaşlarımız SPARE Beynəlxalq məktəb proqramı ilə birlikdə məktəbəqədər, orta ümumtəhsil və məktəbdənkənar təhsil müəssisələrinin müəllimləri üçün “Alternativ enerji” adlı

metodik vəsait və “Enerji və ətraf mühit” mövzusunda ekoloji dərnəklərin nümunəvi tədris proqramı hazırlanmışdır.

Təhsil Nazirliyinin 46-20-9207/16 nömrəli, 5 noyabr 2012-ci il tarixli məktubu ilə Ombudsmanla birgə 20 oktyabr - 20 noyabr 2012-ci l tarixlərində bütün təhsil müəssisələrində “Uşaq hüquqları aylığı” keçirilmişdir.

Kanagava Beynəlxalq Fondu tərəfindən 2013-cü ilin iyul ayında Yaponiyada XVII Kanagava Dünya Uşaqlarının Bədii Sərgisində məktəblilərin iştirakının təmin edilməsi məqsədilə yerlərə Nazirliyin 46-20-9166/16 nömrəli, 01 noyabr 2012-ci il tarixli müvafiq təlimati məktubu göndərilmişdir. Ənənəvi olaraq keçirilən həmin sərgidə qalib olan uşaqlar diplom və pul mükafatı ilə mükafatlandırılırlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 7 iyul 2007-ci il tarixli, 1621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramının 6.6.1-ci bəndində “Rayon və şəhərlərdə zərərli vərdişlərin profilaktikası ilə bağlı seminar, konfrans, treninq, sərgi, festival, müsabiqə, mədəni-kütləvi aksiya və təşviqat kampaniyalarının keçirilməsi, sosial reklam çarxlarının hazırlanması və televiziya kanallarında işıqlandırılması, teatr tamaşalarının hazırlanması, onların rayon və şəhərlərdə nümayişinin təşkil olunması” və 27 dekabr 2011-ci il tarixli, 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın 2.7-ci bəndində “Əhali, xüsusilə də uşaq və gənclər arasında sağlam ətraf mühit və sağlam həyat tərzinin geniş təbliği, narkomaniyaya, alkoqolizmə aludə olanların, İİV/QİÇS-ə yoluxmuş şəxslərin reabilitasiyası üzrə tədbirlərin həyata keçirilməsi” məqsədilə yerlərə Nazirliyin 46-20-9205/16 nömrəli, 05 noyabr 2012-ci il tarixli təlimati məktubu göndərilmişdir.

Ombudsman Aparatının ümumtəhsil məktəblərinin şagirdləri arasında 10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü, Azərbaycan Ombudsman təsisatının on illiyi münasibətilə keçirdiyi “Mən və hüquqlarım” mövzusunda uşaq rəsmləri müsabiqəsində məktəblilərin iştirakının təmin edilməsi məqsədilə təhsil müəssisələrinin rəhbərlərinə Nazirliyin 46-20-9678/16 nömrəli, 16 noyabr 2012-ci il tarixli təlimati məktubu göndərilmişdir.

Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının müddəalarına uyğun olaraq Təhsil Nazirliyi Ombudsmanla ilə birgə orta ümumtəhsil məktəblərində insan hüquqları təhsili bazasında 2007-2009-ci illərdə uşaq hüquqları tədrisini həyata keçirir.

Layihənin icrasına ilk olaraq Bakı şəhərinin 3 məktəbdə: 5, 31 və 207 №-li tam orta ümumtəhsil məktəblərində başlanılmış və 300-dən artıq şagirdi əhatə etmişdir. 2010-cu ildən başlayaraq həmin layihə Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsi ilə birlikdə davam etdirilir.

20 noyabr 2012-ci il tarixdə Təhsil Nazirliyinin müvafiq tədbirlər planına uyğun olaraq Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecində görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 90 illik yubileyinə həsr olunmuş orta ixtisas musiqi məktəbləri arasında gənc ifaçıların Respublika müsabiqəsi keçirilmişdir.

22 noyabr 2012-ci il tarixdə isə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında keçirilmiş yekun konsertdə qaliblər mükafatlandırılmışdır.

27-28 noyabr 2012-ci il tarixlərində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Avropa İttifaqı ilə birgə “Ailədə uşaqların zorakılığa məruz qalmasının qarşısının alınması” mövzusunda keçirdiyi seminarda şöbənin aparıcı məsləhətçisi M. Salmanova

“Zorakılığa məruz qalmış uşaqların aşkarlanmasında məktəb psixoloqunun rolu” mövzusunda məruzə ilə çıxış etmişdir.

14 dekabr 2012-ci il tarixində Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzi T. İsmayılov adına “Uşaq dünyası” rəsm qalereyasında sağlamlıq imkanları məhdud olan uşaqlar arasında **“Dünya bizim gözümüzlə ”**adlı təsviri sənət sərgisi və konsert keçirmişdir**.**

Azərbaycan Respublikası Prezidentinin dahi Azərbaycan şairi və mütəfəkkiri **“Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında”** 23 dekabr 2011-ci il tarixli 1927 nömrəli, **“Fikrət Əmirovun 90 illik yubileyinin keçirilməsi haqqında”** 06 fevral 2012-ci il tarixli, 1079 nömrəli, **“Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında”** 16 fevral 2012-ci il tarixli, 2051 nömrəli, **“Əhməd Cavadın 120 illik yubileyinin keçirilməsi haqqında”** 9 fevral 2012-ci il tarixli 2033 nömrəli sərəncamlarının icrası ilə bağlı Təhsil Nazirliyinin əmr və tədbirlər planı hazırlanmışdır.

Hər il Ümumdünya Poçt İttifaqının xətti ilə Azərpoçt Dövlət müəssisəsi Təhsil Nazirliyi ilə birgə ümumtəhsil məktəblərinin şagirdləri arasında **epistolyar inşa müsabiqəsi** keçirir. Müsabiqənin keçirilməsi ilə bağlı təlimatı məktub hazırlanıb.

Tədris ilində akademik Həsən Əliyevin 105 illik yubileyi ilə əlaqədar görkəmli alimin xatirəsinə həsr olunmuş “Təbiəti qorumaq-həyatı qorumaq deməkdir” devizi altında Bakı şəhəri 34, 36, 117, 194, 254 və s. məktəblərdə “Ekologiya və davamlı inkişaf”, “Təbiətin dostları”, “Ətraf mühit və biz”, “Biomüxtəlifliyi qoruyaq”, “Yaşıl sərvətimizi”, “Planetimiz-bizim gələcəyimizdir”, “Həyəcan təbili”, “Yaşıl sərvətimiz” və s. mövzularda dəyirmi masalar, ekoloji gecələr, məktəb konfransları, müsabiqələr, sərgilər və digər ekoloji tədbirlər keçirilmişdir.

Mütəfəkkir alimin 105 illik yubileyi ilə əlaqədar olaraq Bakı Şəhəri üzrə Təhsil İdarəsi birlikdə 2012-ci ilin dekabr ayında “Akademik Həsən Əliyev və Azərbaycan təbiəti” mövzusunda Bakı şəhəri məktəblilərinin elmi-praktik konfransını keçirilməsi nəzərdə tutulmuşdur. Tədbirlərdə əsas məqsəd akademik Həsən Əliyevin ekologiya və təbiətin mühafizəsi sahəsində zəngin irsinin öyrənilməsi, görkəmli ekoloqun humanist ideyalarının təbliğ edilməsi, məktəblilərdə ətraf mühitə qayğıkeş və məsuliyyətli münasibətin tərbiyə edilməsindən ibarətdir. Elmi-praktik konfrans orta ümumtəhsil məktəblərinin V-XI sinif şagirdləri, məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvləri arasında 3 bölmə üzrə keçiriləcəkdir: 1. Azərbaycanın bioloji müxtəlifliyi və meşələrin qorunması; 2. Ətraf mühitin mühafizəsi və ekoloji monitorinq; 3. Təbii sərvətlər və davamlı inkişaf. Ən yaxşı referat və yaradıcılıq işləri təqdim edən məktəblilər yekun konfransda məruzə edəcək və yaradıcılıq işlərindən ibarət sərgi təşkil olunacaqdır.

Azərbaycanda uşaq və yeniyetmələrin mədəni inkişafı üçün yaradılmış imkanları dünya ictimaiyyətinə tanıtmaq məqsədi ilə Təhsil Nazirliyi “ELS” Müstəqil Araşdırmalar Mərkəzi ilə birgə “Uşaq internet Portalı” yaratmışdır. Həmin layihə ilə bağlı işlər davam etdirilir. Portalla bağlı mərkəz tərəfindən keçirilən müzakirələrə, dəyirmi masalarda, tədbirlərdə aparıcı məsləhətçi M. Salmanova etmişdir.

Nazirliyin 16 noyabr 2012-ci il tarixli, 1619 nömrəli əmri ilə uşaq yaradıcılıq mərkəzlərinin dərnək üzvlərinin əl işlərinin Respublika müsabiqəsi keçirilmişdir. Müsabiqəyə uşaq yaradıcılığının müxtəlif növləri üzrə 500-dən yuxarı iş təqdim edilmişdir. Münsiflər heyəti tərəfindən 60 qalib iş seçilmişdir. Müsabiqənin qaliblərinin mükafatlandırılması və ən yaxşı işlərə baxış-sərgi keçirilmişdir. Ən yaxşı işlərin kataloqunun hazırlanması məqsədilə həmin işlərin fotoları çəkilmişdir və nəşrə hazırdır.

T. İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının hesabat ili ərzində bir çox uğurları olmuşdur. Sarayın kollektivi müxtəlif beynəlxalq və dövlət səviyyəli tədbirlərdə,

müsabiqələrdə iştirak etmişdir. Bir çox respublika səviyyəli tədbirlər Sarayın “Uşaq Dünyası” Rəsm Qalereyasında keçirilmişdir.

Nizami rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin kollektivinin respublika və beynəlxalq səviyyəli müsabiqə və festivallarda böyük uğurları olmuşdur. Nazirliyin razılığı ilə Mərkəzin “Azəri inciləri” rəqs qrupu və “Çiçəyim” uşaq teatrının üzvləri Türkiyə Respublikasının Fəthiyə şəhərində keçirilən “23 nisan – Beynəlxalq Uşaq Festivalı”nda böyük uğurla çıxış etmişlər. Mərkəzin aprel ayında Heydər Əliyev Sarayında hesabat konserti olmuşdur. Konsertdə yüksək səviyyəli qonaqlar iştirak etmişdir.

Xalqımızın milli bayramı olan Novruz bayramının təntənəli şəkildə qeyd edilməsi məqsədilə Bakı şəhərində fəaliyyət göstərən uşaq yaradıcılıq mərkəzlərinin bədii kollektivlərinin fəal iştirakı təmin edilmişdir.

Dövlət Sərhəd Xidməti, Gənclər və İdman Nazirliyi ilə birgə razılaşdırılmış tədbirlər planına əsasən gənclər arasında hərbi-vətənpərvərlik işinin yüksəldilməsi məqsədilə “Sərhəd” hərbi-idman oyunları keçirilmişdir. Finalda 8 rayonun komandası iştirak etmişdir: Naxçıvan şəhəri, Füzuli, Ağstafa, Cəlilabad, Lerik, Şəki, Qax və Qusar rayonunun komandaları. Final Dövlət Sərhəd Xidmətinin Bakı şəhərində yerləşən Xüsusi Məktəbində olmuşdur. I yerə Füzuli, II yerə Ağstafa, III yerə Cəlilabad rayonlarının komandaları çıxmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli, 1938 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda Təhsil Nazirliyi tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin icrasını təmin etmək məqsədilə əmr və tədbirlər planı hazırlanmışdır. (14.05.2012, №825). MFP-nin cari ildə icra vəziyyəti ilə bağlı Ombudsmana hesabat təqdim edilmişdir.

III Respublika muğam müsabiqəsinin keçirilməsi ilə bağlı Nazirliyin 27 noyabr 2012-ci il tarixli, 2119 nömrəli əmri ilə müsabiqənin əsasnaməsi, təşkilat komitəsi və münsiflər heyətinin tərkibi təsdiq edilərək “Azərbaycan müəllimi” qəzetində və nazirliyin internet səhifəsində yerləşdirilmişdir.

Fiziki tərbiyə və idman dövlət üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Məhz bunun nəticəsidir ki, Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin Respublikaya rəhərlik etdiyi dövrlərdə ölkədə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi dövlət qayğısı olmuşdur. Hazırda Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının fəaliyyətində bu sistem prioritet sahələrdən birini təşkil etməkdədir.

Ölkədə idmana göstərilən diqqət və qayğı nəticəsində son illər Azərbaycan idmançıları beynəlxalq yarışlarda böyük uğurlar əldə edirlər. Məhz buna görə də ölkəmizdə çoxlu sayda Avropa, dünya birincilikləri, olimpiya təsnifat turnirləri keçirilməkdədir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində 159 uşaq-gənclər idman və şahmat məktəbləri fəaliyyət göstərir. Onlardan: 83-ü uşaq-gənclər idman məktəbi, 9-u ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbi, 63-ü uşaq- gənclər şahmat məktəbi, 3-ü ixisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər şahmat məktəbi, 1-i uşaq-gənclər fiziki hazırlıq klubudur. Bu məktəblərdə 27 idman növü inkişaf etdirilir.

Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş idman tədbirlərinin təqvim planına uyğun olaraq il ərzində uşaq-gənclər idman və uşaq-gənclər şahmat məktəbləri arasında 39 çempionat, birincilik, zona və seçmə yarışları, 11 respublika turniri, eləcə də, beynəlxalq və respublika yarışlarına hazırlıqla əlaqədar 70 təlim-məşq toplanışı keçirilmişdir.

İl ərzində Respublika birincilik, çempionat və kubok yarışlarında idman növləri üzrə 557 medal, o cümlədən, 219 qızıl, 172 gümüş, 166 bürünc medal qazanılmışdır.

Avropa, Dünya birinciliyi və çempionatlarında, eləcə də beynəlxalq turnirlərdə idman növləri üzrə 97 medal, o cümlədən 55 qızıl, 17 gümüş, 25 bürünc medal qazanılmışdır.

İdman növləri üzrə 2108 nəfər yüksək dərəcəli idmançı hazırlanıb. Onlardan 1831 nəfəri I-dərəcəli idmançı, 266 nəfəri idman ustalığına namizəd, 6 nəfəri idman ustası, 2 nəfəri FİDE (Beynəlxalq Şahmat Federasiyası) ustası, 3 nəfəri beynəlxalq dərəcəli idman ustasıdır.

Qeyd olunan nailiyyətlərin əldə olunmasında 1 və 2 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman məktəblərinin, Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat Məktəbinin, Bakı şəhər 1 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbinin, Abşeron, Quba rayon Uşaq-Gənclər İdman məktəblərinin böyük əməyi olmuşdur.

İdman və Şahmat məktəbləri ilə yanaşı, Nazirliyin kütləvi idman tədbirlərinin təqvim planına müvafiq olaraq ali, orta ixtisas, peşə məktəbləri, peşə liseyləri və ümumtəhsil məktəblərində təhsil alan tələbə və şagirdlər arasında spartakiadalar, birinciliklər, dövlət əhəmiyyətli bayramlara həsr olunmuş tədbirlər və xatirə turnirləri keçirilmişdir.

2012-ci ildə ümumtəhsil, texniki-peşə, orta ixtisas və ali təhsil müəssisələrinin şagird və tələbələri arasında voleybol, həndbol, basketbol, atletika və milli güləş idman növləri üzrə respublika yarışları keçirilmişdir. Həmin yarışlarda 5 mindən çox şagird və tələbə iştirak etmişdir.

"2005-2015-ci illərdə Azərbaycanda futbolun inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində işlər davam etdirilmişdir.

Uşaq, yeniyetmə və gənclər arasında futbol idman növünü təbliğ etmək, onların ustalıqlarını artırmaq, perspektivli futbolçuları üzə çıxartmaq məqsədilə Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş təqvim planlarına uyğun olaraq il ərzində uşaq-gənclər idman məktəbləri, ümumtəhsil, texniki peşə, orta ixtisas və ali təhsil müəssisələrinin şagird və tələbələri arasında mütəmadi olaraq müxtəlif yaş qrupları üzrə məktəbdaxili, rayon, şəhər və respublika səviyyəli yarış, turnir, birincilik və çempionatlar keçirilmiş, müxtəlif yaş qrupları üzrə komandaların beynəlxalq turnirlərdə iştirakları təmin edilmişdir.

AFFA tərəfindən bölgələr üzrə keçirilən U-11, U-12, U-13, U-14, U-15, U-16 və U-17 yaş qrupları üzrə keçirilən yarışlarda futbol bölmələri olan uşaq-gənclər idman məktəblərinin komandalarının iştirakları təmin olunmuşdur.

Bakı şəhər 10 nömrəli və 14 nömrəli uşaq-gənclər idman məktəblərində futbol bölmələri açılmış, "Vətən" Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Futbol Məktəbində, "Təhsil" Respublika İdman Mərkəzinin Uşaq-Gənclər Futbol Məktəbində, "Təhsil" Respublika İdman Mərkəzinin Gəncə filialında və Bakı şəhər 9 nömrəli uşaq-gənclər idman məktəbində qız qrupları yaradılmışdır.

Məşqçi-müəllimlərin AFFA tərəfindən keçirilən məşqçilik kurslarında iştirakları təmin olunmuşdir.

Nazirliyin tabeliyində olan futbol məktəbləri yumşaq inventar və idman avadanlıqları ilə təchiz edilmişdir.

FİFA tərəfindən ölkəmizdə keçirilmiş 17 yaşadək qadınlar arasında Dünya çempionatının təşkilində şöbənin əməkdaşları yaxından iştirak etmişdir.

Dövlət proqramı qəbul olunandan sonrakı dövrdə futbolun tədrisi, maddi, tədris-texniki bazasının yaxşılaşdırılması, təhsil müəssisələrində yeni meydançaların yaradılması istiqamətində bir sıra işlər görülmüşdür.

2008-ci ildə Gəncə şəhər 1 nömrəli əsas internat məktəbinin bazasında futbol təmayüllü internat tipli gimnaziya yaradılmışdır.

2010-cu ildə "Təhsil" Respublika İdman Mərkəzinin Bakı filialının bazasında Uşaq-Gənclər İdman Məktəbi yaradılmışdır.

2008-ci ildə "Vətən" Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Futbol Məktəbi üçün stadion, hər cür şəraiti olan inzibati bina və digər yardımçı otaqlar tikilərək istifadəyə verilmiş, həmin məktəb üçün 2011-ci ilin may ayında əlavə olaraq ikinci yeni stadion və inzibati bina tikilərək futbolçuların istifadəsinə verilmişdir.

2008-2011-ci illərdə Bakı şəhərinin 51, 136, 171, 201, 237, 262, 239 nömrəli orta məktəblərində, Gəncə Şəhər Uşaq-Gənclər İdman Məktəbində, Gəncə şəhəri 28 nömrəli idman təmayüllü məktəbdə, Sumqayıt şəhəri 4 nömrəli Texniki Peşə Liseyində, Füzuli rayonu 27 nömrəli, Lerik şəhəri 2 nömrəli, Şamaxı rayonu Şəhriyar qəsəbəsi 4 nömrəli, Ağcabədi rayonu 11 nömrəli, Astara rayonu Kakalos kənd, Goranboy rayonu Qaraqoyunlu kənd orta məktəblərində, Makarenko adına internat məktəbində, "Təhsil" Respublika İdman Mərkəzinin Uşaq-Gənclər Futbol Məktəbində, həmin Mərkəzin Gəncə filialında və Sumqayıt Dövlət Universitetində, ümumilikdə 20 təhsil müəssisəsində süni örtüklü futbol meydançaları inşa edilmişdir.

Ali və orta ixtisas təhsili müəssisələrində futbol meydançalarının yaradılması, mövcud bazaların təmir olunması istiqamətində tədbirlər hazırlanıb həyata keçirilmişdir.

Naxçıvan Dövlət Universitetində süni örtüklü, müasir tələblərə cavab verən yeni futbol meydançası yaradılmış, Azərbaycan Texnologiya Universitetində futbol üzrə məşq və yarışların keçirilməsi üçün nəzərdə tutulmuş örtülü idman kompleksi əsaslı təmir edilərək tələbələrin istifadəsinə verilmiş, Mingəçevir Politexnik İnstitutunun İdman Sağlamlıq Kompleksində mini futbol üçün əlverişli şərait yaradılmışdır.

Gəncə Texniki Kollecində, Sabirabad Dövlət Sosial İqtisad Kollecində və Şəki Pedaqoji Kollecində yeni mini futbol meydançaları , Şirvan Pedaqoji Kollecində isə futbol meydançası yaradılmış, Sumqayıt Dövlət Texniki Kollecinin mini futbol meydançası əsaslı təmir olunmuş, Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecində mini futbol meydançasının yaradılması nəzərdə tutulmuşdur.

2010-cu ildə "Təhsil" Respublika İdman Mərkəzinin Uşaq-Gənclər Futbol Məktəbində və həmin Mərkəzin Gəncə filialında yeni futbol meydançaları yaradılmışdır.

Dövlət Proqramı qəbul olunanadək Təhsil Nazirliyi sistemindəki idman məktəblərində 71 bölmə fəaliyyət göstərib. Aparılan tədbirlər nəticəsində hazırda futbol bölmələrinin sayı 76-ya çatdırılıb. Belə ki, 2007-ci ildə Bakı şəhər 19 nömrəli, 2009-cu ildə Bakı şəhər 8 və 15 nömrəli, 2012-ci ildə Bakı şəhər 10 və 14 nömrəli uşaq-gənclər idman məktəblərində futbol bölmələri açılmışdır.

Bakı şəhəri 51, 136, 171, 200, 201, 237, 239 və 240 nömrəli orta məktəblərin V, VI, və VII siniflərində futbol dərsləri tədris olunmuşdur.

Futbol dərslərinə 47 sinif üzrə 1065 şagird cəlb edilmiş, hər bir şagird idman geyimi, futbol dərslərinin yüksək səviyyədə keçirilməsi üçün məktəblər əyani vəsaitlərlə təmin edilmiş, AFFA tərəfindən məvacibi ödənilməklə futbol dərslərini aparmaq üçün xüsusi məşqçilər ayrılmışdır.

2008-ci ildən başlayaraq ali təhsil müəssisələrinin tələbələri arasında futbol üzrə ölkə çempionatları keçirilmiş, 30-dan çox ali təhsil müəssisəsinin iştirak etdiyi bu çempionata 2010-cu ildə "Liqa" statusu verilmişdir.

Təhsil Nazirliyi tərəfindən futbolun maddi, tədris-texniki bazası ilə yanaşı futbolun tədrisinin yaxşılaşdırılması istiqamətində də müəyyən tədbirlər hazırlanıb həyata keçirilir.

2010-cu ildə "Beynəlxalq idman həyəcanı" layihəsi çərçivəsində Azərbaycanda uşaq futbolunun inkişafına dəstək məqsədilə Böyük Britaniyanın Premyer Liqasının Uşaq Futbol Akademiyası ilə birgə "Uşaq futbolunun inkişafına texniki dəstək-praktik məşğələlər", "Gənc futbolçuların tədris-məşq prosesinin təşkili və tərbiyə işinin planlaşdırılması" adlı tədris-metodiki vəsaitlər hazırlanmışdır.

Görülən tədbirlər nəticəsində futbol idman növünün inkişaf etdirilməsi üçün müvafiq maddi və tədris-texniki baza, milli yığma komandalara, klub komandalara ehtiyat oyunçuların hazırlanması işi yaxşılaşdırılmış, futbol bölmələrinin sayı artırılmış, kütləviliyə nail olunmuşdur.

Yaradılan şəraitin nəticəsidir ki, 2012-ci ildə "Vətən" Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Futbol Məktəbinin 70 nəfər yetirməsi milli yığma komandalarda, klub-komandaların nəzdində fəaliyyət göstərən komandalarda, 1-ci divizionda və əvəzedici komandaların tərkibində çıxış etmişlər. Həmin Məktəbin 4 yaş qrupu üzrə 20 klub-komandası Bakı şəhər klub-komanda birinciliyində, 2 komandası "Sabahın Ulduzları" paytaxt çempionatında, U-11, U-13, U-15 və U-16 yığma komandaları isə Azərbaycan çempionatında çıxış etmiş, Respublika, Beynəlxalq turnirlərində və digər yarışlarda iştirak etmişlər. Qeyd olunan yarış və turnirlərdə 20 qızıl, 18 gümüş, 20 bürünc medal qazanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nın təsdiq edilməsi barədə 05 may 2009-cu il tarixli, 260 nömrəli Sərəncamının icrası ilə bağlı Təhsil Nazirliyinin tədbirlər planına uyğun olaraq bir sıra işlər həyata keçirilmişdir

Şahmat məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onları müasir inventar, avadanlıq, kompüter və kompüter avadanlıqları ilə tam təmin olunmaları istiqamətində tədbirlər həyata keçirilmışdir .

2009-2012-ci illərdə Naxçıvan, Mingəçevir şəhər, Samux, Yevlax, Şamaxı, Cəlilabad, Gədəbəy, Ağcabədi, Quba, Xaçmaz, Ucar, Goranboy, Qazax, İmişli, Saatlı, Füzuli rayonlarında şahmat məktəbləri üçün müasir tələblərə cavab verən və avadanlıqlarla təchiz edilmiş yeni binalar tikilib istifadəyə verilmiş, Sumqayıt şəhər, Bərdə rayon şahmat məktəbləri isə əsaslı təmir olunmuşdur.

Bu məktəblərinin yeni binalarının açılış mərasimlərində ölkə Prezidenti cənab İlham Əliyev iştirak etmiş, məşqçi-müəllim heyətinə və şahmatçılara öz tövsiyələrini vermişdir.

Dövlət Proqramı çərçivəsində nazirlik tərəfindən 2011-2012-ci illərdə Masallı və Ağstafa şahmat məktəbləri əsaslı təmir olunmuşdur.

Dövlət Proqramına uyğun olaraq 2010 və 2011-ci illərdə Təhsil Nazirliyi tərəfindən şahmat məktəblərinə 212 ədəd kompüter, 126 ədəd notbuk, 89 ədəd proyeksiya aparatı, 40 ədəd elektron şahmat lövhəsi, 103 ədəd eletron şahmat saatı, 110 ədəd internetə qoşulan elektron şahmat saatı, 110 ədəd internetə qoşulan elektron şahmat fiqurları, 320 dəst şahmat fiqurları, 92 ədəd maqnit nümayiş lövhəsi (ayaqlı), 57 ədəd monitor, 3000 ədəd müxtəlif mebel verilmişdir.

"Şahmat dünyası", "Şahmat dünyası-2" multimedia sistemi-elektron dərs vəsaitləri hazırlanıb bütün şahmat məktəblərinə paylanılmışdır.

Təcrübə mübadiləsi aparmaq, məktəbli şahmatçılara əməli və metodiki köməkliklər göstərmək, eləcə də hakimlik etmək üçün Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən şahmat məktəblərinin əməkdaşlarının, eyni zamanda beynəlxalq qrossmeysterlərin müxtəlif ölkələrdə keçirilən Avropa, dünya birinciliklərində, çempionatlarında və turnirlərdə iştirakları təmin edilmişdir.

Müvafiq bazası olan şahmat məktəblərinin bina və yarış zallarında təlim-məşq prosesindən kənar vaxtlarda əhalinin bütün yaş təbəqələri nümayəndələrinə yarışların və şahmatla bağlı digər tədbirlərin keçirilməsi üçün müvafiq şərait yaradılıb. Belə ki, şahmat məktəblərində təlim-məşq prosesindən kənar vaxtlarda əhalinin bütün yaş təbəqələri nümayəndələri ilə yarışların və şahmatla bağlı digər tədbirlərin keçirilməsi üçün şahmat məktəblərində təşkilat komitələri yaradılmış, bununla bağlı məlumat-maarifçilik və təbliğat işinin təşkili üzrə müxtəlif elanlar hazırlanaraq şagird və valideynlər arasında yayılmışdır. Şəraiti olan şahmat məktəblərində həftənin bir neçə günü, müəyyən olunmuş saatlarda “Açıq qapı” günləri təşkil olunur, əhalinin müxtəlif yaş təbəqələrinin iştirakı ilə “Blits turnir”, “Master klass” və s. yarış, turnirlər keçirilir, şahmat ustaları, qabaqcıl məşqçi-müəllimlər və hakimlərlə görüşlər təşkil olunur.

2012-ci ilin yanvar ayından respublikanın bütün şəhər və rayonlarında seçilmiş 75 pilot məktəbin 2-ci siniflərində şahmatın tədrisi həyata keçirilmişdir. Bunun üçün müvafiq proqram və dərs vəsaiti hazırlanıb yerlərə paylanmışdır. Eyni zamanda həmin məktəblərdə şahmatın tədrisi ilə məşğul olan müəllimlər üçün kurs təşkil edilmişdir.

2012-2013-cü dərs ilində pilot məktəblərin şəbəkəsi genişləndirilərək seçilmiş pilot məktəblərin 2-ci və 3-cü sinifləri ilə yanaşı, hər rayon və şəhərin seçilmiş daha 3-5 məktəbində də “Şahmat” fənninin tədrisi həyata keçirilir.

Hazırda 379 ümumtəhsil məktəbində 28 minə yaxın şagirdə “Şahmat” fənni tədris olunur.

“Şahmat 2”, “Şahmat 3” adlı dərsliklər hazırlanmış, onlara qrif verilmiş və çap üçün təqdim olunmuşdur.

Təcrübə mübadiləsi aparmaq, məktəbli şahmatçılara əməli və metodiki kömək göstərmək, eləcə də hakimlik etmək üçün şahmat məktəblərinin əməkdaşlarının, eyni zamanda beynəlxalq qrossmeysterlərin müxtəlif ölkələrdə keçirilən Avropa, dünya birinciliklərində, çempionatlarında və beynəlxalq turnirlərdə iştirakları təmin edilmişdir.

Dövlət Proqramının icrası ilə bağlı aparılan işlərin, yaradılan şəraitin nəticəsidir ki, son 4 ildə məktəbli şahmatçılar Avropa, dünya və beynəlxalq səviyyəli rəsmi yarışlarda 43 medal, o cümlədən, 20 qızıl, 14 gümüş, 9 bürünc medal qazanmışlar.

Müqayisə üçün qeyd edək ki, 1993-cü ildən 2008-ci ilədək, yəni 16 il ərzində cəmi 68 medal qazanılmışdır ki, onlardan da 23-ü qızıl, 23-ü gümüş, 22-i isə bürünc olmuşdur.

Həyata keçirilən tədbirlər nəticəsində Şahmat məktəblərinin maddi, tədris-texniki bazaları, tədrisin vəziyyəti və Azərbaycan şahmatçılarının beynəlxalq səviyyəli yarışlarda əldə etdikləri nəticələr yaxşılaşmışdır.

Hər il hər iki Dövlət Proqramının icra vəziyyəti ilə bağlı Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinə məlumatlar verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 29 mart 2012-ci il tarixli, 2112 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında 2012-ci ilin “İdman ili” elan edilməsi ilə bağlı Tədbirlər planı”nda Təhsil Nazirliyi tərəfindən həyata keçirilməsi nəzərdə tutulan bəndlərin icrası ilə bağlı Nazirliyin 26.04.2012-ci il tarixli 651 nömrəli əmri ilə “Azərbaycan Respublikasında 2012-ci ilin “İdman ili” elan edilməsi ilə bağlı Təhsil Nazirliyinin Tədbirlər Planı” təsdiq edilmişdir.

Tədbirlər Planına uyğun olaraq aşağıdakı işlər həyata keçirilmişdir:

- 2012-ci ilin oktyabr-noyabr aylarında respublikamızın 59 rayon və şəhərində ümumi təhsil müəssisələrinin şagirdləri arasında “Bizim olimpiya çempionlarımız” mövzusunda inşa müsabiqələri keçirilmişdir. Hər bir rayon və şəhər üzrə müsabiqənin qalibləri “Fəxri fərman” və hədiyyələrlə mükafatlandırılmışlar.

- Azərbaycanın görkəmli idman mütəxəssisləri və idmançılarından bəhs edən “İdman ensiklopediyası”na daxil edilmək üçün Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman və uşaq-gənclər şahmat məktəblərinin yaranma tarixləri, fəxri adlar almış idman mütəxəssisləri və yüksək nəticələr əldə etmiş idmançılar haqqında məlumatlar hazırlanaraq Ensiklopediyanın müəlliflərindən biri olan Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru, professor Dilqəm Quliyevə təqdim edilmişdir.
- Təhsil Nazirliyinin 19.11.2012-ci il tarixli, 2076 nömrəli əmri ilə “İdman ili”ndə Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman və şahmat məktəblərinin, həmin məktəblərdə çalışan məşqçi-müəllimlərin fəaliyyətlərini qiymətləndirmək, istedadlı idmançıları aşkar etmək və onları rəğbətləndirmək məqsədilə 12 nominasiya üzrə respublika müsabiqəsi keçirilir.
- Müsabiqəyə cari ilin dekabr ayında yekun vurulacaq, qaliblər diplom və hədiyyələrlə mükafatlandırılacaqlar.
- uşaq-gənclər idman məktəblərində “İdman ili”nə həsr olunmuş basketbol, badminton, həndbol, futbol, üzgüçülük, Yunan-Roma güləşi, sərbəst güləş, stolüstü tennis, ağır atletika, atletika, taekvando və başqa idman növləri üzrə, uşaq-gənclər şahmat məktəblərində şahmat idman növü üzrə kütləvi yarışlar, Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş təqvim planına uyğun olaraq basketbol, atletika, futbol və şahmat idman növləri üzrə respublika birinciliyi və çempionatları keçirilmişdir.

Keçirilən tədbirlər haqqında mütəmadi olaraq kütləvi informasiya vasitələrində məlumatlar verilmişdir.

Uşaq və yeniyetmələr arasında aparılan turizm və diyarşünaslıq işlərini genişləndirmək, onları doğma diyarın öyrənilməsinə cəlb etmək, turist ustalıqlarını artırmaq, asudə vaxtlarını səmərəli keçirmək, eyni zamanda şagirdləri xalqımızın tarixi, ədəbiyyatı, incəsənəti və musiqisi ilə yaxından tanış etmək, görkəmli şair və yazıçılarımızın həyat və yaradıcılğını daha dərindən öyrətmək üçün ekskursiyalar təşkil olunmuş, yarışlar, müsabiqələr və kütləvi tədbirlər keçirilmişdir.

“Turizm və diyarşünaslıq mərkəzlərinin dərnək üzvlərinin əl işlərindən ibarət sərgi-müsabiqə”, “Azərbaycanı sev və öyrən” turist-diyarşünaslıq ekspedisiyasının respublika baxış-müsabiqəsi, “Məktəblilərin turizm-diyarşünaslıq üzrə respublika yarışı”, “Milli-mənəvi irsimiz tariximizdir” adlı diyarşünaslıq olimpiadası keçirilmişdir.

Təşkil olunmuş ekskursiyalara 3 min nəfərə yaxın məktəbli cəlb olunmuş, yarış və müasbiqələrdə minlərlə şagird iştirak etmişdir.